ədalət.- 2022.- 2 iyul.- S.8.



Oktay ABDULLA

## DEDİM

*Son demədin bu həsrətə, nisgilə,*
*Yenə çağla, gözlərimdən ax dedim.*
*Bir yaxın gəl, ürəyimin dincinə,*
*Sıralanıb dərd sinəmdə, sıx dedim.*

*Vətənimin, torpağımın daşıyam,*
*Yaşatmadın ömür sürəm, yaşıyam.*
*Bu sevgimin daş heykəli-daşıyam,*
*Şimşək olub, gözlərimə çax dedim.*

*Xəyalımda qollarına büründüm,*
*Kölgələrtək hey arxanca süründüm.*
*Dönə-dönə torpaqlara gömüldüm,*
*Can atımmı, intahara, çox dedim.*

*Ruhum, könlüm sevməyəni sevmədim,*
*Qəlbə dəyən bircə söz də demədim.*
*Qoynun cənnət, bəharini dərmədim,*
*Məndə dözüm, səndə insaf, yox dedim.*

*Gül camalın divanəsi, eşqi mən,*
*Şam yanırsa, pərvanəsi, eşqi sən!*
*Yerin, göyün mehrabı sən, eşqi sən,*
*Yandı bağrım, neçə kərə of, dedim!*

*Gah yuxumda, gah aşkarda görün sən,*
*Can mülkümün təpərisən, mehrisən,*
*Sən günəşsən, kainatın sehrisən,*
*Daha öldür, yandır məni, yax dedim.*

## AY KÖNLÜM!

*Dərd verənə, dərd qənimdi,*
*Sən dərd çəkmə, dərd mənimdi.*
*Dərd sevgilim, həmdəmimdi,*
*Dilim tutmur söz, ay könlüm!*

*Sinə gərdim çox sitəmə,*
*Məndən şeir, söz istəmə.*
*Ocağın var, köz istəmə,*
*Bağrım atəş, köz, ay könlüm!*

*Ötən aylar, il nə dedi?*
*Baxışların, dil nə dedi?*
*Gülməz üzüm, gül nə dedi?*
*Dözə bilsən, döz, ay könlüm!*

*Elə yandım, döndüm külə,*
*Gur çaylara axıt selə.*
*Sığal çəkməz, gümüş telə,*
*Yalvarsan da yüz, ay könlüm!*

*Kimsəsizə kim həyandı?*
*Günəş çıxdı, ay dolandı.*
*Göylər ulduz - çıraqbandı,*
*Tək-tək qopar, üz ay könlüm!..*

## MƏNİ

*Üyütməz dərdimi dəyirman daşı,*
*Ayrılıq həsrətin göynədir məni.*
*Hər gecə sübhəcən qonağım olur,*
*Könlümə gəlişin söylədir məni!*

*Əlvida deməyə dilim gəlmədi,*
*Son sözü düşüncəm, əqlim demədi.*
*Ölən ki, cismimdir, ruhum ölmədi,*
*Camalın özünə öyrədir məni!*

*O günəş surətin yandırıb-yaxır,*
*Çağlayan çayların gözümdən axır.*
*Baxışın şimşəktək gözümdə çaxır,*
*Ah odlu çaxışın teylədir məni!*

*Bülbülün sevdası, o gülü sənsən,*
*Nəğməkar dodağı, o dili sənsən.*
*Könlümün həm bəmi, həm zili sənsən,*
*Sinəm dərd talası, bellədir məni!*

*Dəhrdə qüdrətim, sənsən təhərim,*
*Göylərin ulduzu axşam-səhərim.*
*Varlığım, fərəhim, könül əsərim,*
*Sabahın, axşamın kövrəldir məni!*

## NEYNİM?!

*Söz məni ovudur, mən də dərdimi,*
*Oturub-dururam sözünlə, neynim?!*
*Yurd salan gözümdə amanın nə xoş,*
*"Davamız" bir ayrı, özünlə, neynim?!*

*Ömrümün payızı, ömrün qışında,*
*Bir səba yelləri əsir başımda.*
*Durmusan könlümün astanasında,*
*Dur doydur gözümü, gözünlə neynim?!*

*Ruhuma toxuyub, hörürəm səni,*
*Allaha əmanət verirəm səni.*
*Baxdığım hər yerdə görürəm səni,*
*Çəmənli, çiçəkli düzünlə neynim?!*

*Yaratmış nə gözəl səni yaradan,*
*Gecələr nur saçır ay camalından.*
*Qor düşüb bağrıma baxışlarından,*
*Yandırıb de yaxan közünlə, neynim?!*

*Dərdlərim hamilə həddən ziyada,*
*Əlacı, şəfası ulduzda, ayda.*
*Sən məndən çox uzaq, mən də piyada,*
*Oktayı öldürən, tezinlə, neynim?!*